**AZƏRBAYCAN RESPUBLİKASININ**
**AUDİTORLAR PALATASI ŞURASININ**
**QƏRARI**

**Bakı şəhəri** **№310/6** **3 may 2019-cu il**

**"Auditorların ixtisasartırma kurslarının təşkili üzrə Qaydalar" barədə**

Auditorlar Palatasının 2019-cu il üzrə iş planının 1.2.6-cı "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə yeni qaydaların hazırlanması" bəndinin icrası ilə əlaqədar Palatanın Kadr hazırlığı şöbəsi (E.Behbudova) tərəfindən qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanmış "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə Qaydalar"ın layihəsini müzakirə edərək Auditorlar Palatasının Şurası

**QƏRARA ALIR:**

1. "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə Qaydalar" təsdiq edilsin (əlavə olunur).

2. Kadr hazırlığı şöbəsinə (E.Behbudova) tapşırılsın ki:

2.1. Bu qərarın 1-ci bəndi ilə təsdiq edilmiş "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə Qaydalar"ın auditor təşkilatları və sərbəst auditorlara göndərilməsi təmin edilsin;

2.2. Auditorların ixtisasartırma kurslarının təsdiq edilmiş Qaydalar əsasında vaxtında və keyfiyyətlə keçirilməsi təmin edilsin;

2.3. "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə Qaydalar"ın VII bölməsinə müvafiq olaraq müəllimlərin seçilməsi ilə əlaqədar elanın bir həftə ərzində Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin;

2.4. On gün müddətində Auditorların ixtisasartırması və peşə təhsili üzrə komitə (A.Qurbanov) ilə razılaşdırılmaqla Qaydaların 7.4.1 yarımbəndinə müvafiq olaraq Müsabiqə Komissiyasının tərkibi haqqında təkliflər təqdim edilsin.

3. Auditorlar Palatası Şurasının "Auditorların və mütəxəssislərin ixtisasartırma kurslarının təşkili və keçirilməsi Qaydaları" barədə 2015-ci il 14 aprel tarixli 261/5 nömrəli qərarları qüvvədən düşmüş hesab edilsin.

4. Bu qərarın və "Auditorların ixtisasartırma kurslarının təşkili üzrə Qaydalar"ın mətnlərinin Palatanın internet səhifəsində yerləşdirilməsi təmin edilsin.

**Şuranın sədri** **Vahid Novruzov**